**Sevda Məmmədova,**
*BMA təcrübə bölməsinin müdiri*



# Tofiq Quliyev və Azərbaycan musiqisi

**Tofiq Quliyev Azərbaycan musiqisində öz dəst-xətti ilə tanınan görkəmli bəstəkarlarımızdandır. O öz yaradıcılığında bir çox janrlara müraciət etmiş, simfonik əsərlər, operettalar, kantatalar, kamera-instrumental əsərlər, kino və teatr tamaşalarına musiqilər bəstələmişdir.**

Bununla belə T.Quliyev yaradıcılığının əsasını mahnı janrı təşkil edir. O, bu sahədə öz yolunu, öz cığırını, öz dəsti-xəttini, nəhayət, özünəməxsus üslubunu tapmış, mahnı janrının ifadə vasitələrini genişləndirməyə nail olmuşdur. 200-ə qədər mahnının müəllifi olan bəstəkar estrada musiqimizin banisi, müasir Azərbaycan mahnısının klassiki kimi böyük uğurlara imza atmışdır.

T.Quliyevin mahnıları yaranma tarixindən asılı olmayaraq, bu gün də dillər əzbəridir. Onun mahnı yaradıcılığı sahəsindəki tapıntıları, ənənələri bəstəkarlar üçün gözəl örnəyə çevrilmişdir.

T.Quliyevin gənclik təravəti, həyat eşqi ilə aşıb-daşan əsərlərində şən, işıqlı emosiyalar, təbii ifadə tərzi, qəlbləri oxşayan səmimi hisslər hökm sürür. Həyatın müxtəlif cəhətlərini bəstəkar özünün şairanə təxəyyül prizmasından keçirdiyindən, musiqisinin əsasını lirika təşkil edir. Onun lirik mahnılarında sevinc və kədər, coşğun hiss və duyğular ustalıqla tərənnüm olunur. "Azərbaycan", "Bakı haqqında mahnı", "Sənə də qalmaz", "Sevgi valsı", "Zibeydə", "Üzüyümün qaşı" və başqa mahnılar bu mənada unudulmaz, dillər əzbəri və həmişəyaşardır.

T.Quliyevin mahnılarının əksəriyyəti onun kinofilmlərə bəstələdiyi musiqinin ayrılmaz tərkib hissəsidir və onlar sözün həqiqi mənasında, ekran həyatımıza əbədi daxil olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, bəstəkarın mahnı janrına meyli onun digər əsərlərinə də təsir göstərmişdir. Bəstəkarın fortepiano əsərləri bu baxımdan təqdirəlayiqdir. T.Quliyev fortepianoda insan səsinə xas olan emosional, ifadəli cəhətləri tapır və onları öz əsərlərində təcəssüm etdirir. Bu əsərlərin fakturası vokal ifadə tərzinə malikdir. Belə ki, burada müstəqil melodik səs və müşayət fonu özünü aydın büruzə verir.

T.Quliyevin mahnı yaradıcılığından gələn və onun bütün əsərlərinə sirayət edən daha bir diqqətəlayiq cəhət lakoniklikdir. Bəstəkar öz fikrini qısa, dolğun, yığcam formada ifadə etməyi bacarır. Buna görə də o, miniatur janrına çox üstünlük verir. Fortepiano yaradıcılığında bunun gözəl nümunələrini görürük. "Cəmilənin albomu" uşaq pyesləri məcmuəsi, "15 Azərbaycan xalq rəqsləri" məcmuəsi, prelüdlər, valslar buna misal ola bilər. Eyni zamanda, bəstəkarın fortepiano yaradıcılığına variasiyalar və "Qaytağı" kimi parlaq virtuoz əsərlər də daxildir.

Qeyd etdiyimiz bütün bu əsərlər məzmununa görə rəngarəng və müxtəlifdir. T.Quliyevin bəstəkarlıqla yanaşı bir pianoçu kimi də parlaq istedada malik olması və öz əsərlərini gözəl ifa etməsi xüsusilə əhəmiyyətlidir. Çünki alətin bədii-texniki imkanlarını gözəl bilməsi onun əsərlərinin ifaçılıq imkanlarına çox təsir edir. Məhz ona görə də T.Quliyevin əsərləri pianoçuluq baxımından əhəmiyyətlidir. Bəstəkar pianoçuluq texnikasının müxtəlif üsullarından istifadə edərək, şəffaf fakturalı əsərlər yaratmışdır.

T.Quliyevin estrada janrına marağı onun fortepiano musiqisində də özünü büruzə verir. Fortepiano musiqisinə estradaya xas cəhətləri gətirən ilk bəstəkar T.Quliyevin valsları xüsusi qeyd olunmalıdır. Bu əsərlərin geniş dinləyici zövqünün tərbiyəsində əhəmiyyəti çox böyükdür.

Ümumiyyətlə, T.Quliyevin bütün yaradıcılığı, onun irili-xırdalı müxtəlif janrlarda yazılmış əsərləri xalqa ünvanlanmışdır. Onlar xalqın yaddaşına əbədi həkk olunaraq, gələcək nəsillərə ötürülür, müəllifini yaşadır. Bu əsərlər xalqın mədəni irsinin ən dəyərli sərvətinə çevrilmişdir.